# XIZI

Qəzet 1990-cı ildən çıxır.
№ 6-7 (188-189) 312-313
oktyabr-noyabr 2023-cü il

Təsisçi: Xızı Rayon İcra Hakimiyyəti




*"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır".*

Heydər Əliyev



**"Biz təkcə ərazi bütövlüyümüzü yox, milli qürurumuzu bərpa etdik. Buna görə, əziz hərbçilər, sizə borcluyuq, sizin kimi on minlərlə əsgər, zabitə borcluyuq və Azərbaycan xalqı bunu yaxşı bilir. Mən də Ali Baş Komandan kimi sizinlə fəxr edirəm".**

**İLHAM ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

# 8 Noyabr - Zəfər Günü müasir Azərbaycan tarixinin qəhrəmanlıqla dolu ən parlaq səhifəsidir





**Torpaqlarımızın azadlığı uğrunda 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə vətənpərvər əsgərlərimizin şücaəti, hünəri, şəhidlərimizin qanı bahasına qazanılan bu möhtəşəm Zəfər indiki və gələcək nəsillərə qürur və örnək mənbəyidir.**

8 Noyabr - Zəfər Günü respublikamızın hər yerində olduğu kimi Xızı rayonunda da böyük coşqu və qələbəlik hissi ilə qeyd edildi. Bu münasibətlə silsilə tədbirlər həyata keçirildi. Noyabrın 8-də rayonun inzibati mərkəzi olan Xızı şəhərində geniş tərkibdə yüksək əhval-ruhiyəli bayram tədbiri təşkil olundu.

Əvvəlcə, Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi ilə RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, hüquq-mühafizə orqanlarının, eləcə də idarə, təşkilat, müəssisələrin rəhbərləri və əməkdaşları, şəhid ailələri, hərbçilər, Vətən müharibəsinin iştirakçıları, qazilər, ağsaqqallar, gənclər, ziyalılar Xızı şəhərinin mərkəzindən "Şəhidlər" abidə kompleksinin qarşısınadək yürüş etdilər. Bayram yürüşünün iştirakçıları abidə kompleksinin önünə tər gül-çiçək dəstələri düzərək, şəhidlərin ruhunu bir dəqiqəlik sükutla yad etdilər.

Daha sonra Heydər Əliyev Mərkəzinin qarşısında mədəniyyət və incəsənət ustalarının ifasında geniş bayram konserti nümayiş etdirildi. Vətənpərvərlik ruhunda olan mahnıların, ədəbi-bədii kompozisiyaların ifası hər dəfə alqışlar və böyük coşqu ilə qarşılandı.

***"XIZI", R.M.***
*8 noyabr 2023-cü il*





# Müasir müstəqil Azərbaycan dövlətinin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub

**1993-cü il oktyabrın 3-nə təyin edilmiş Prezident seçkiləri Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi idi. Xalq böyük səs çoxluğu ilə öz seçimini etdi və Heydər Əliyevi prezident seçdi. Həmin taleyüklü seçimlə bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli qoyuldu.**



Xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək Azərbaycanı böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaradıb.

Ümummilli Lider andiçmə mərasimindəki nitqində deyib: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm."

Müstəqilliyin ilk illərində sağlam düşüncənin səsinə qulaq asıb, böyük siyasi xadimi respublika rəhbərliyinə dəvət etsəydilər, Azərbaycan 20 Yanvar, Xocalı faciələrini görməz, habelə Laçın, Şuşa xəyanətlərin qurbanı olmaz, ölkə ərazisinin 20 faizi işğal edilməz, dövlət müstəqilliyimiz ağrılı və əzablı yollardan keçməzdi.

Müstəqilliyin ilk illərində xalqımız qarşıya çıxan çətin problemlərin həllini, xilaskarlıq missiyasını Heydər Əliyevdə gördü. 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq və qeyri-peşəkar idarəetmə dövrü kimi xatırlanır. Dövlətin suveren mövcudluğuna təhdid yaradan bütün amillər həmin dövrdə dövlətə səriştəsiz və qeyri-peşəkar şəxslərin rəhbərlik etməsinə görə baş verirdi.

Azərbaycan xalqı qanı və canı bahasına əldə etdiyi müstəqilliyin qorunması üçün bu müstəqilliyin əldə olunmasına ən çox töhfə vermiş və onu qoruya biləcək əvəzsiz lideri - Heydər Əliyevi dəvət etdi.

Millətin məhəbbətini qazanmış Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaqdır. Azərbaycan xalqının tarixində taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, parlaq şəxsiyyət Heydər Əliyevin xüsusi rolu vardır. Ümummilli Lider Heydər Əliyev öz xilaskarlıq missiyasının öhdəsindən yüksək səviyyədə gəlmişdir.

Ulu öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi əsaslı şəkildə sürətlənmişdir. Ümummilli Lider ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrildi. Milli ruhun yüksəlməsi, milli özünüdərkin inkişafı və xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsip və vəzifələrə xidmət edən azərbaycançılıq məfkurəsi dövlətin qüdrətinin artırılmasında real siyasi amilə çevrilmişdir.

Azərbaycan Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilmişdir. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyevin təcrübəli və müdrik siyasəti sayəsində qısa müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaranmış və uğurlar əldə olunmuşdur. Dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları Azərbaycana ciddi diqqət yetirməyə başlamış və ölkəmiz beynəlxalq münasibətlər sisteminin suveren aktoruna çevrilmişdir.

Qərbə inteqrasiya yolunu tutan Ulu Öndər Heydər Əliyev ən çətin anlarda belə yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi anti-azərbaycan, antimilli qüvvələrin qarşısında sipərə çevrildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi məhz bu böyük insanın iradəsi və qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

> **"Bizim, Azərbaycan dövlətinin çox gözəl gələcəyi var. Biz bu gələcəyi müstəqillik yolunda görürük. Azərbaycan üçün dövlət müstəqilliyi tarixi nailiyyətdir, ən böyük sərvətdir."**
>
> **Heydər ƏLİYEV, Ümummilli Lider**

Heydər Əliyevin neft strategiyasının təcəssümü olan "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. 1994-cü ilin sentyabr ayının 20-də dünyanın 8 ölkəsinin 13 neft şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" sonrakı illərdə daha 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmış, 1997-ci ildə Azərbaycan nefti Bakı-Novorossiysk neft kəməri ilə, 1999-cu ildə isə Bakı-Supsa neft kəməri ilə dünya bazarına çıxarılmışdır.

Ümummilli Liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyri-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. 1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin fonunda ölkənin siyasi-hüquqi sistemində müsbət mənada əsaslı dəyişikliklər oldu. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlar atıldı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması, Ombudsman təsisatının yaradılması, ölüm hökmünün ləğv edilməsi və onlarla digər bu kimi islahat xarakterli demokratik təşəbbüslər bilavasitə Heydər Əliyevin gərgin əməyinin nəticəsidir.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən əsas işlərdən biri də ölkənin dünya birliyinə inteqrasiyasının təmin olunmasıdır. Ulu Öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərin həllinə yönəlmişdir.

Heydər Əliyevin uğurlu xarici siyasət kursu nəticəsində beynəlxalq təşkilatlarla bərabərhüquqlu səviyyədə əməkdaşlıq müstəqilliyin əsas dayaqlarından birinə çevrilib.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması faktını beynəlxalq təşkilatların siyasi gündəliyinə gətirmişdir. Heydər Əliyev tərəfindən əsası qoyulan xarici siyasət kursunun mühüm prioritetlərindən birini Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil etmişdir. Məhz Heydər Əliyevin gərgin əməyi və ardıcıl səyləri nəticəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmış və məsələnin mahiyyəti dünya ictimaiyyətinin diqqətinə çatdırılmışdır. Ulu Öndərin bir çox dünya dövlətləri ilə bu mövzuda danışıqlar apararaq beynəlxalq tədbirlərdə, o cümlədən sammitlərdə Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi və Ermənistanın işğalçılıq siyasətinin pislənildiyi qətnamələrin və bəyanatların qəbul olunmasına nail olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan dövlətinin beynəlxalq arenadakı nüfuzu ildən-ilə artır. Regionda söz, güc sahibinə çevrilmiş ölkə kimi tanınır. Müzəffər Ordunun rəşadəti sayəsində torpaqlarımız işğaldan azad olunub və Azərbaycan öz ərazisində suverenliyini tam bərpa edib. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin Azərbaycanın xoşbəxt gələcəyi naminə böyük uzaqgörənliklə müəyyənləşdirdiyi siyasi kursun parlaq təntənəsidir.

***"XIZI", R.M.***

# Tarix yazan əbədiyaşar lider

Xızı Rayon İcra Hakimiyyətinin və YAP Xızı rayon təşkilatının birgə təşkilatçılığı ilə 18 Oktyabr - Müstəqilliyin Bərpası Gününə həsr olunmuş "Tarix yazan əbədiyaşar lider" mövzusunda tədbir keçirilib. Oktyabrın 18-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin konfrans zalında Xızı RİHBA-nın işçilərinin, partiya fəallarının, idarə, təşkilat və müəssisələrin əməkdaşlarının, ziyalıların iştirakı ilə təşkil edilmiş tədbirdə, əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin işıqlı xatirələri bir dəqiqəlik sükutla yad edilib.



Tədbiri giriş sözü ilə Xızı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov açıb. O bildirib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri həm iqtisadi yüksəliş, həm təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi, həm də elmin, təhsilin misilsiz tərəqqisi illəri kimi yaddaşlarda qalıb.

> **"Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, yenilməzdir, sarsılmazdır. Biz Azərbaycanın dövlət müstəqilliyini bundan sonra da göz bəbəyimiz kimi qoruyacağıq, yüksəldəcəyik."**
>
> **Heydər ƏLİYEV, Ümummilli Lider**

A. Hüseynov öz çıxışında Ulu Öndərin müstəqilliyimizin əldə olunması və inkişaf etdirilməsi istiqamətində sarsılmaz fəaliyyətindən, müdrik siyasəti və dönməz əqidəsindən, eləcə də Ümummilli Lider tərəfindən qorunub saxlanılan müstəqilliyimizin hal-hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında daha da möhkəmləndirilməsindən danışıb.

Sonrakı çıxışlarda bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr edən Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərindən, 1969-1982-ci illəri əhatə edən Azərbaycana rəhbərliyinin birinci dövründə həyatımızın bütün sahələrində aparılmış köklü islahatlar və dəyişikliklərdən, müstəqilliyimizin bərpasından, Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsində Ulu Öndərin əvəzsiz rolundan bəhs edilib.

Sonda Ümummilli Lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti əks olunmuş geniş videoslayd nümayiş etdirilib.

***"XIZI", R.M.***
*18 oktyabr 2023-cü il*

# İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov 8 Noyabr - Zəfər Günü ilə əlaqədar şəhid ailələrini ziyarət edib










**Xızı rayonunun rəhbərliyi tərəfindən Azərbaycanın ərazi bütövlüyü, suverenliyinin qorunması naminə canlarını fəda etmiş qəhrəman Vətən övladlarının - Şəhidlərin ailələrinə mütəmadi olaraq baş çəkilir, onlara mənəvi dəstək, diqqət və qayğı göstərilir.**

8 Noyabr - Zəfər Günü ilə əlaqədar Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov doğma torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda canlarından keçmiş şəhidlərimizin ailələrini ziyarət edib.

Görüşlər zamanı ölməz adları ən yüksək zirvəni fəth etmiş şəhidlərin əziz və nurlu xatirələri böyük ehtiramla yad edilib. Vətən müharibəsində şanlı tarixi Qələbənin Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun rəşadəti, qəhrəmanlığı, şəhidlərin qanı, canı bahasına əldə edildiyi qeyd olunub, şəhid ailələrinin hər zaman Azərbaycan dövlətinin diqqət və qayğısı ilə əhatə olunduğu vurğulanıb.

Şəhid ailələri onlara göstərilən dəstəyə, diqqətə və qayğıya görə dövlət başçısına eləcə də rayon rəhbərliyinə öz minnətdarlıqlarını ifadə ediblər.

Görüşlərdə şəhid ailələrini narahat edən məsələlərlə yaxından tanış olan İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov problemlərin aradan qaldırılmasını tam nəzarətə götürüb.

*"XIZI", R.M.*
*7 noyabr 2023-cü il*









# Xızı Rayon İcra Hakimiyyəti başçısının 2023-cü ilin dekabr ayı ərzində keçirəcəyi səyyar görüş-qəbullar barədə məlumat

| S/N | Rayon, şəhər | Səyyar görüş-qəbulun keçiriləcəyi yaşayış məntəqəsi | Səyyar görüş-qəbulun keçiriləcəyi yer | Səyyar görüş-qəbulun keçiriləcəyi tarix | Səyyar görüş-qəbulun keçiriləcəyi saat |
|---|---|---|---|---|---|
| 1 | Xızı | Tıxlı kəndi | Tıxlı kənd ümumi orta məktəbin binası | 01.12.2023 | $11^{00}$ |
| 2 | | Sitalçay kəndi | Sitalçay kənd uşaq bağçasının binası | 08.12.2023 | $11^{00}$ |
| 3 | | Şorabad qəsəbəsi | Şorabad qəsəbə tam orta məktəbin binası | 15.12.2023 | $11^{00}$ |
| 4 | | Xızı şəhəri | Xızı şəhər tam orta məktəbin binası | 22.12.2023 | $11^{00}$ |

## *Azərbaycan Prokurorluğu - 105*

# Prokurorluq işçilərinin peşə bayramı qeyd edildi



**Xızıda Azərbaycan Respublikasında Prokurorluq orqanlarının yaradılmasının 105 illiyi və 1 oktyabr - Prokurorluq işçilərinin peşə bayramı günü qeyd olunub.**



Bununla əlaqədar, Xızı rayon prokuroru, baş ədliyyə müşaviri Rahim Səfəralıyev və prokurorluğun işçiləri Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Tədbirdə prokurorluq işçiləri ilə yanaşı Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev və Xızı RİH başçısının müavini Arzu Əzizov iştirak ediblər.

Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin ölməz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

***"XIZI", R.M.***

# Prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur



**Kənan Əlizadə,**
*Xızı Rayon Prokurorluğunun müstəntiqi, II dərəcəli hüquqşünas*

***Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev respublikanın daha möhtəşəm uğurlar qazanması naminə fədakarlıqla çalışır, dövlət strukturlarının beynəlxalq normalara uyğun qurulması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirir, bununla hər bir Azərbaycan vətəndaşını əzmkarlıqla çalışmağa ruhlandırır, vətəni sevməyin gözəl bir nümunəsini diqqətə çatdırır.***

Ümummilli Liderimiz Heydər Əliyevin xalqın israrlı tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində olduğu kimi, məhkəmə-hüquq sistemində də köklü islahatlara başlanıldı. Bu zaman Ulu Öndər müstəqil respublikamızın Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bildirir və cümhuriyyət ideyalarının ölkədə daha geniş şəkildə yayılmasına çalışırdı. Bu baxımdan, Xalq Cümhuriyyətinin atributlarının müstəqil Azərbaycan Respublikasının dövlət rəmzləri kimi qəbul edilməsi dahi şəxsiyyətin müstəsna xidmətlərindən biri idi.

1918-ci il oktyabrın 1-də Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanı yaradılmışdı.

Beləliklə, ötən əsrin sonlarında yenidən müstəqillik əldə edən xalqımız Azərbaycan Respublikasının Xalq Cümhuriyyətinin varisi olduğunu bəyan etmiş, əsl istiqlaliyyət və milli dirçəliş ideya və arzularına isə Ümummilli Liderin yenidən ölkədə siyasi rəhbərliyə qayıtmasından sonra qovuşa bilmiş, Xalq Cümhuriyyətinin müstəqillik ideyasını, dövlətçilik atributlarını gerçəkləşdirmişdi.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyinin ilk vaxtlarından etibarən hüquq-mühafizə sisteminin bütün sahələrində olduğu kimi, prokurorluq orqanlarının da dövlətçiliyin maraqlarına, qanunun aliliyinə, insan hüquqlarının və azadlıqlarının müdafiəsinə xidmət edən sivil, demokratik bir qurum kimi formalaşması üçün qanunvericiliyin təkmilləşdirilməsini, bu istiqamətdə maddi və sosial bazanın yaradılmasını diqqət mərkəzində saxlayırdı. Dahi şəxsiyyət prokurorluğa böyük dəstək göstərməyə xüsusi önəm verərək, deyirdi: "Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır..."

Ümummilli Liderin 2000-ci il aprelin 26-da prokurorluq orqanlarının rəhbər işçiləri ilə keçirdiyi müşavirə də bu dəyərli fikrin bariz ifadəsi, əyani nümayişi idi. Həmin tarixi müşavirədə qarşıda qoyulan vəzifələrlə bağlı reallaşdırılan islahatlar nəticəsində bu sistemdə təməl prinsipləri mövcud tələblərlə uzlaşdırıldı, hüquqi baza əsasında struktur yeniləşdirildi. Bütün bunlarla bərabər, Azərbaycan Prokurorluğu yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirildi, əməkdaşların vəzifələri və səlahiyyətləri beynəlxalq standartlara uyğun müəyyənləşdirildi. Beləliklə, prokurorluq tamamilə yenidən təşkil olunaraq, dövlət strukturları sırasında demokratik bir orqan kimi öz layiqli yerini tutdu və bununla da, dövlətçiliyimizin əsas sütunlarından birinə çevrildi.

**"Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır...".**

**HEYDƏR ƏLİYEV, Ümummilli Lider**

Prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların əsasını və onun hüquqi bazasının təməlini təşkil edən, Ulu Öndərimizin təşəbbüsü əsasında 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu dövlət təsisatının yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirildi və prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verildi. Konstitusiyaya 24 avqust 2002-ci il tarixli referendumla edilən dəyişikliklərlə Azərbaycan Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququnun verilməsi isə hüquq sisteminin təkmilləşdirilməsində və inkişafında bu təsisatın rolunu daha da artırdı.

Bundan sonra isə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü əsasında qəbul edilən 7 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla, prokurorluq orqanlarının daha da demokratikləşdirilməsini, onun qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini reallaşdırdı. Beynəlxalq hüquq normalarına və demokratik prinsiplərə uyğun hazırlanan "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" Azərbaycan Respublikası qanunlarının və digər hüquqi aktların qəbul olunması ilə prokurorluğun fəaliyyətini tənzimləyən hüquqi baza dövrün tələblərinə və beynəlxalq standartlara uyğun formalaşdırıldı.

Ümummilli Lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə də Azərbaycan Prokurorluğu şərəfli bir təkamül yolu keçib, xalqın və dövlətin hərtərəfli dəstəyinə arxalanaraq, milli ənənələrə və mütərəqqi dünya standartlarına uyğun şəkildə təkmilləşib. Bu əsasla da hazırda prokurorluq qanunun aliliyinin təmin olunmasında, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində səmərəli fəaliyyəti ilə nüfuzlu bir quruma çevrilib.

Azərbaycan Prezidenti 2020-ci il mayın 1-də Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edərkən, prokurorluğun tarixində yeni bir səhifə açmış, prokurorluq orqanlarında daha genişmiqyaslı islahatlara ehtiyac olduğunu bildirərək, bu sahədə yeniləşmələr gerçəkləşdirməklə uğurlar qazanılacağına əminliyini ifadə edib, "Hüquq-mühafizə orqanlarında da daha genişmiqyaslı islahatların aparılması başlıca şərtdir. Burada sizin üzərinizə böyük vəzifə düşür və ümid edirəm ki, siz bu vəzifənin öhdəsindən gələcəksiniz. İlk növbədə, qanunun aliliyi tam təmin edilməlidir və ədalətli cəmiyyətin qurulması üçün qanunun aliliyi başlıca şərtdir" - deyib.

Prokurorluq orqanlarının daha səmərəli fəaliyyətinin şərtləndirilməsi üçün ölkə rəhbəri bu sistemdə kadrların peşəkarlığının daim diqqət mərkəzində saxlanılmasını, onların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməsini, prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilərdə bu keyfiyyətin önə çəkilməsini, eyni zamanda, bu vacib amillə bərabər, dövlətçiliyə sədaqət prinsiplərinə də hər zaman önəm verilməsini vurğulayıb. Dövlətimizin başçısı prokurorluq orqanları qarşısında korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizənin daha da gücləndirilməsi, bu istiqamətdə daha fəal iş aparılmasını mühüm bir vəzifə kimi qoyub.

Prezident İlham Əliyevin prokurorluq orqanları qarşısında müəyyənləşdirdiyi vəzifələrin qısa zamanda və yüksək keyfiyyətlə icrasına nail olmaq məqsədilə ötən müddətdə Baş prokuror Kamran Əliyevin birbaşa rəhbərliyi ilə təxirəsalınmaz tədbirlər həyata keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin 16 iyun 2020-ci il tarixli Sərəncamına əsasən, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması, fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkar kadrların formalaşdırılması məqsədilə Baş Prokurorluğun yeni strukturu təsdiq olunub. Bu əsasda Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən qurularaq, daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr təsis edilib.

Beləliklə, 105 illik Azərbaycan Prokurorluğu bundan sonra da qarşıya qoyulmuş vəzifələrin icrasında, qanunçuluq və hüquq qaydasının təmin olunmasında yorulmaz fəaliyyət göstərəcəkdir.

# Xızıda keçirilən ağacəkmə aksiyası Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunub



Xızıda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar ağacəkmə aksiyası keçirilib. Noyabrın 21-də təşkil olunmuş aksiyada Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanovun rəhbərliyi altında Xızı RİHBA-nın işçiləri, YAP Xızı rayon təşkilatının fəalları, eləcə də rayonda fəaliyyət göstərən idarə, təşkilat və müəssisələrin əməkdaşları iştirak ediblər.

60 nəfərin iştirakı ilə "Heydər Əliyev İli" çərçivəsində təşkil olunmuş ağacəkmə aksiyasının keçirilməsində əsas məqsəd Azərbaycanda ətraf mühitin və meşə zolaqlarının qorunması və mühafizəsini hər zaman diqqətdə saxlamış Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, onun yaşıllaşdırma ənənələrini, irsini davam etdirmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə qayğı hissini təbliğ etmək olub.

Yüksək əhval və həvəslə keçirilmiş ağacəkmə aksiyasında 100 ədəd həmişəyaşıl tuya və sərv ağacları əkilmiş, yeni basdırılmış tinglərə aqrotexniki qulluq göstərilmiş və suvarılmışdır.

*"XIZI", R.M.*
*21 noyabr 2023-cü il*



# Dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlim keçirilib

"Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin təşəbbüsü və Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə oktyabrın 7-də Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlim keçirilib.

"Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planının həyata keçirilməsinə yardım göstərilməsi və dövlət qulluqçularının antikorrupsiya qanunvericiliyi, korrupsiya riskləri və onların idarə olunması, etik davranış qaydaları, bu qaydaların praktikada tətbiqi sahəsində elmi-nəzəri biliklərin inkişaf etdirilməsi, praktik bacarıqların artırılmasına dəstək verilməsi məqsədilə təşkil olunmuş təlimdə Xızı rayonunda fəaliyyət göstərən, rəhbər vəzifələrdə çalışan dövlət qulluqçuları iştirak ediblər.

Təlimdə korrupsiya hallarını yaradan səbəblər, onların doğurduğu nəticələr barədə fikir mübadilələri, mövzu ətrafında geniş müzakirələr aparılıb.

*"XIZI", R.M.*
*7 oktyabr 2023-cü il*

# Xızı rayonunda "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan qadını" adlı tədbir keçirilib

**Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və Qadınlar Qurultayının 25 illiyinə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan qadını" adlı tədbir keçirilib.**

Oktyabrın 13-də Heydər Əliyev Mərkəzinin konfrans zalında təşkil olunmuş tədbirdə rayonun idarə, təşkilat və müəssisələrində çalışan fəal qadınlarla yanaşı İcra Hakimiyyətinin rəsmiləri də iştirak ediblər.



Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin, görkəmli oftolmoloq alim Zərifə xanım Əliyevanın və Vətənimizin bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra, Azərbaycanda dövlət qadın siyasətinin həyata keçirilməsində Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən bəhs edən videoslayd nümayiş etdirilib.

Tədbirdə giriş sözü ilə Xızı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov çıxış edib. O bildirib ki, Ulu öndər Heydər Əliyev həm sovetlər birliyi dövründə, həm də müstəqil Azərbaycan dövləti qurulandan sonra da gender məsələlərinə böyük diqqət ayırıb.

Ümummilli Lider Heydər Əliyevin qadınlara həmişə diqqət və qayğı göstərdiyini qeyd edən A.Hüseynov məhz Ulu Öndər tərəfindən 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" Sərəncam imzalandığını, Prezidentin müvafiq Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradıldığını, 1998-ci ilin sentyabrında isə Azərbaycan Qadınlarının I Qurultayının keçirildiyini diqqətə çatdırıb.

Çıxışının sonunda Xızı qadınları ilə bağlı mühüm statistik göstəriciləri tədbir iştirakçılarının nəzərinə çatdıran Abdulla Hüseynov qadınların hər birinə fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra Xızı RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Tünzalə İmranovanın, Xızı rayon Sitalçay kənd uşaq bağçasının müdiri Gülnar Məlikovanın və Xızı şəhərindəki Heydər Əliyev Mərkəzinin direktoru Əzət Qarayevanın çıxışları dinlənilib.

Çıxışlarda Ulu Öndərin siyasi qüdrətindən ilham alan Azərbaycan qadınlarının aydın siyasi təfəkküründən, ölkəmizdə gedən quruculuq proseslərinə verdikləri töhfələrdən, onların təhsil, səhiyyə, idman və digər sahələrdəki dolğun fəaliyyətlərindən bəhs edilib, Azərbaycan qadınının uğurlarının təməlində Heydər Əliyevin dövlət qadın siyasətinin dayandığı vurğulanıb.

Natiqlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın timsalında Azərbaycan qadınının dünyadakı nüfuzundan, eləcə də ölkədə gender siyasəti sahəsində aparılan məqsədyönlü fəaliyyətindən danışıblar.

Qadınların rastlaşdıqları dövrün aktual problemləri ilə bağlı müzakirələr də tədbirin mühüm hissəsi olub. Mövzu ətrafında təkliflər dinlənilib, suallar cavablandırılıb.

*"XIZI", R.M.*
*13 oktyabr 2023-cü il*

# Xızıda "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda maarifləndirici tədbir keçirilmişdir

Xızı Rayon İcra Hakimiyyətinin, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin, İnsan Hüquqları üzrə müvəkkilin(ombudsman) Şimal Regional Mərkəzinin, Abşeron-Xızı Regional Gənclər İdman İdarəsinin birgə təşkilatçılığı ilə oktyabrın 24-də R. İsmayılov adına Xızı şəhər tam orta məktəbində "Uşaq hüquqlarının qorunması: erkən nikah problemi və ona qarşı mübarizə yolları" mövzusunda maarifləndirici tədbir keçirilmişdir.

Tədbirdə Xızı Rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Yalçın Abdullayev, İnsan Hüquqları üzrə Ombudsman Aparatının Şimal Regional Mərkəzinin rəhbəri Bəhruz Əfəndiyev, Abşeron-Xızı Regional Gənclər İdman İdarəsinin əməkdaşı Rauf Rəcəbov, R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin direktoru Fazil Məmmədov, eləcə də yuxarıda adı çəkilən təhsil ocağının müəllim və şagirdləri iştirak etmişdir.

Məktəbin akt zalında təşkil olunmuş tədbiri giriş sözü ilə açan Xızı RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Abdulla Hüseynov gənclər arasında erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmənin aparılma prinsipləri, vasitələri, istiqamətləri, maarifləndirməni həyata keçirən dövlət qurumlarının dairəsi və onların funksiyaları barədə ətraflı məlumat vermişdir.



Dini qurumlarla iş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin müdiri Yalçın Abdullayev öz çıxışında milli-mənəvi dəyərlərimizin təbliğ edilməsinin dini radikalizmə qarşı mübarizə baxımından zəruriliyini qeyd edib. O bildirib ki, keçirilən tədbirin əsas məqsədi gənclərin dini radikalizm, ekstremizm və digər mənfi işlərdən qorunması, milli-mənəvi dəyərlərin və vətənpərvərliyin təbliğ olunmasıdır.



Daha sonra İnsan Hüquqları üzrə Ombudsman Aparatının Şimal Regional Mərkəzinin rəhbəri Bəhruz Əfəndiyev uşaq hüquqlarının müdafiəsi, erkən nikahla bağlı mövcud beynəlxalq normalar, milli qanunvericilik aktları, dövlət proqramları barədə şagirdlərə məlumat vermişdir.

Tədbirdə Abşeron-Xızı Regional Gənclər İdarəsinin əməkdaşı Rauf Rəcəbov və R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin direktoru Fazil Məmmədov çıxış edərək gənclər arasında milli-mənəvi dəyərlərin və vətənpərvərliyin təbliğ olunması, eləcə də uşaq hüquqlarının qorunması istiqamətində təhsil müəssisələrində aparılan maarifləndirmənin əhəmiyyətindən danışıblar.

Sonda şagirdləri maraqlandıran suallarla bağlı fikir mübadilələri aparılıb.

*"XIZI", R.M.*
*24 oktyabr 2023-cü il*

# Tarixi Zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir







Noyabrın 7-də Xızı Rayon İcra Hakimiyyətinin, YAP Xızı rayon təşkilatının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xızı rayon bölməsinin, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayon nümayəndəliyinin, Abşeron-Xızı Regional Gənclər və İdman İdarəsinin Xızı rayonu üzrə gənclər və idman sektorunun birgə təşkilatçılığı ilə Xızıda 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Tarixi Zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir" adlı tədbir keçirilib.

Heydər Əliyev Mərkəzinin konfrans zalında təşkil olunmuş tədbirdə Xızı RİHBA-nın rəsmiləri, partiya fəalları, hərbçilər, mədəniyyət işçiləri, gənclər, ziyalılar, rayonun digər idarə, təşkilat və müəssisələrinin əməkdaşları iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov, əvvəlcə, ölkəmizin müstəqillik yolunda qazandığı uğurların zirvəsini fəth etmiş 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib.

Öz çıxışında Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti qarşısındakı misilsiz xidmətlərindən danışan Abdulla Hüseynov bildirib ki, Azərbaycan tarixinin ən parlaq səhifələrindən biri kimi yaddaşlara həkk olunmuş tarixi Zəfərimiz Heydər Əliyev siyasətinin təntənəsidir.

Daha sonra Ümummilli lider Heydər Əliyevin Azərbaycanı dünya miqyasında öz layiqli yerini tutmuş, böyük iqtisadi potensiala malik bir ölkəyə çevirməsi yolunda sarsılmaz fəaliyyətindən, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi sayəsində Azərbaycan Ordusunun 44 günlük Zəfər yürüşündə qazandığı möhtəşəm uğurlardan, həyata keçirilən məqsədyönlü daxili və xarici siyasətin nəticəsində Azərbaycanın yüksəlişi və inkişafı, milli maraqlarının qorunması, respublikamızın beynəlxalq siyasi arenada layiqli yer tutmasından bəhs edən çıxışlar dinlənilib.

Tədbirin sonunda müstəqil dövlətçiliyimizin banisi Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

*"XIZI", R.M.*
*7 noyabr 2023-cü il*

# "Heydər Əliyev uşaqların gözü ilə" adlı rəsm sərgisi təşkil olunub







Noyabrın 23-də Xızıda Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev uşaqların gözü ilə" adlı rəsm sərgisi təşkil olunub.

Heydər Əliyev Mərkəzində uşaqların əl işlərinin nümayiş olunduğu sərgidə ictimaiyyət nümayəndələri, məktəblilər iştirak ediblər.

Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Abdulla Hüseynov, YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev, Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin Xızı rayonu üzrə nümayəndəliyinin baş məsləhətçisi Mönsün Bağırov və R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin direktoru Fazil Məmmədov sərginin təşkil olunmasının məqsədi və əhəmiyyəti barədə öz dəyərli fikirlərini söyləyiblər.

Daha sonra sərgiyə baxış keçirilib. Sərgidə nümayiş olunan kompozisiyalarda Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti, Şuşa qalası və "Dəmir yumruq" öz əksini tapıb.

Sonda məktəblilərə sərgidə fəal iştiraka görə təşəkkürnamələr təqdim olunub.

*"XIZI", R.M.*
*23 noyabr 2023-cü il*

# "Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib

**Noyabrın 24-də Xızı Rayon İcra Hakimiyyəti, YAP Xızı rayon təşkilatı və Xızı Rayon Prokurorluğunun birgə təşkilatçılığı ilə "Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi" mövzusunda tədbir keçirilib.**



Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində təşkil olunmuş tədbirdə Xızı RİHBA-nın rəsmiləri, partiya fəalları, prokurorluq işçiləri, ictimaiyyət nümayəndələri, məktəblilər iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Vətənin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Giriş sözü ilə çıxış edən Xızı Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Abdulla Hüseynov ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan olunmasının tarixi-mənəvi əhəmiyyəti haqqında danışaraq, bu istiqamətdə respublikada silsilə tədbirlərin həyata keçirildiyini vurğulayıb. O bildirib ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil dövlətimizin ilk Konstitusiyası tarixi əhəmiyyətə malik sənəd kimi ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət quruculuğunun təməlini qoydu.

Tədbirdə Xızı Rayon Prokurorluğunun müstəntiqi, II dərəcəli hüquqşünas Kənan Əlizadənin, YAP Xızı rayon təşkilatının sədr müavini Ümman Rüstəmlinin müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin demokratik cəmiyyət və hüquqi dövlətin ən vacib atributlarından olan insan hüquq və azadlıqlarının müdafiəsi üçün tarixi xidmətləri və demokratik hüquqi dövlət quruculuğunda dövlətçilik strategiyasının prioritet istiqamətləri barədə geniş çıxışları dinlənilib.

Sonda Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

*"XIZI", R.M.*
*24 noyabr 2023-cü il*

# 4 oktyabr Cəbrayıl şəhəri günüdür

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində erməni işğalı altında olan torpaqlarımızı azad etdi. 30 ilə yaxın doğma yurd-yuva həsrətilə yaşayan insanların həyatına, nəhayət ki, sevinc, xoşbəxtlik nuru ələndi. Qalib Ordumuzun rəşadəti, şəhidlərimizin qanı, canı bahasına işğaldan azad edilmiş rayonlardan biri də Cəbrayıldır.**




52000 nəfər əhalisi olan və 1050 km²-i əhatə edən Cəbrayıl rayonu 1993-cü il avqustun 23-də ermənilər tərəfindən işğal edilən zaman 1 şəhər, 4 qəsəbə və 92 kənddən ibarət idi.

İşğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard ABŞ dolları məbləğində ziyan dəyib. Rayon ərazisindəki 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 132 tarixi abidə, 150 mədəniyyət ocağı, bütün yaşayış məntəqələri ermənilər tərəfindən vəhşicəsinə dağıdıldı. I Qarabağ müharibəsində Cəbrayıl rayonundan 362 nəfər şəhid, 191 nəfər əlil olub. 6 nəfər cəbrayıllı Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Cəbrayıl rayonunun ərazisi sement, mərmər, mişar daşı və digər qiymətli tikinti materialları ilə zəngindir. Dəmir filizi, hətta neft yataqlarının olduğu da məlumdur. İşğaldan əvvəl əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq, baramaçılıqla məşğul olurdu. Elmin, mədəniyyətin, maarifin inkişafı yüksək səviyyəyə çatmışdı. Rayonda 510 çarpayılıq xəstəxanalarda 92 həkim, 432 orta ixtisaslı tibb işçisi, 72 məktəbdə 1660 nəfərdən çox müəllim, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və 1 muzeydə 508 mədəniyyət işçisi çalışırdı. Rayonun





tarix-diyarşünaslıq muzeyində 20 mindən yuxarı eksponat vardı. Rayonda 8 sənaye müəssisəsi, 42 kolxoz, iri və xırda buynuzlu mal-qaranın kökəltmə birliyi, quşçuluq fabriki fəaliyyət göstərirdi.

Dağtumas kəndinin yaxınlığında yerləşən ”Divlər Sarayı” mağarası, Qalacıq kəndindəki ”Məscid Təpəsi”, ”Canqulu” və “Qumtəpə” kurqanları, Diri dağındakı Mazannənə, Mərmər nənə məqbərələri, Dağtumas kəndindəki “Başıkəsik Gümbəz”, Sirik kəndindəki “Qala”, Diri dağındakı ”Qız qalası”, Xudafərin körpüləri, Çələbilər kəndindəki Məscid kompleksi, rayon mərkəzindəki “Sultan Məcid hamamı”, Şıxlar kəndindəki “Dairəvi Türbə”, Xubyarlı kəndindəki “Dairəvi” 8 guşəli türbələr və məqbərələr, türk qəbristanlığındakı türbə və məqbərələrin hər biri erməni vandalizminin qurbanı olmuş, işğal zamanı məhv edilmiş və ya dağıntıya məruz qalmışdır.

Cəbrayıl rayonundan olan məcburi köçkünlər respublikanın 58 rayonunun 2000-dək yaşayış məntəqəsində, o cümlədən qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşdılar.

5 yanvar 1994-cü il tarixində Horadiz əməliyyatı zamanı Cocuq Mərcanlı kəndi işğaldan azad edilmişdi. Strateji yüksəkliklər işğalçılardan azad olunandan sonra Cocuq Mərcanlıya həyatın qayıtması artıq mümkün olmuşdu. Cocuq Mərcanlıya qayıdış Böyük Qayıdışın başlanğıcı idi. 2016-cı il aprel döyüşləri zamanı Azərbaycan Ordusunun əks hücumu nəticəsində Lələtəpə yüksəkliyi də işğaldan azad edilmişdi.

2020-ci il sentyabrın 27-də rayonunun Böyük Mərcanlı və Nüzgar kəndləri, 3 oktyabr tarixində Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri, 4 oktyabr tarixində Cəbrayıl şəhəri və rayonun 9 kəndi - Karxulu, Şükürbəyli, Çərəkən, Daşkəsən, Horovlu, Mahmudlu, Cəfərabad, Yuxarı Maralyan və Decal kəndləri işğaldan azad edildi. Qeyd etmək lazımdır ki, Cəbrayıl rayonunun ərazisində aparılan hərbi əməliyyatlar nəticəsində ümumilikdə 1 şəhər və 90 kənd işğaldan azad olunub.



2020-ci il noyabrın 26-da “Cəbrayılın azad olunmasına görə” medalı təsis edildi. Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 22797 hərbi qulluqçusu “Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif edilmişdir.

Cəbrayıl əməliyyatının əhəmiyyəti, eyni zamanda, ondan ibarət idi ki, Cəbrayıl azad olunandan sonra o vaxt işğal altında olan digər rayonlara uğurlu əks hücumun mümkün olmuşdur. Cəbrayıldan sonra Azərbaycan Ordusunun Xocavənd rayonunun cənub kəndləri və strateji Hadrut qəsəbəsi istiqamətində hərbi əməliyyatlar keçirməsi üçün geniş imkanlar yarandı. Üstəlik, Zəngilan, ondan sonra Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi və Laçın dəhlizi Azərbaycanın nəzarətinə götürüldü. Cəbrayıl rayonu ərazisində yerləşən qədim Xudafərin körpüsünün düşməndən azad edilməsi və Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu körpüdə Azərbaycan bayrağını ucaltmasının böyük tarixi və siyasi əhəmiyyəti vardır.

Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilmişdir. Sözügedən Sərəncama əsasən, 4 oktyabr Cəbrayıl şəhəri günü kimi müəyyən olub.

“Araz Vadisi İqtisadi Zonası”nın yaradılması bütün regionun, o cümlədən Cəbrayıl rayonunun inkişafı üçün önəmli hadisədir. Sözügedən layihə 200 hektarı əhatə edən böyük bir layihədir. İlkin maliyyə vəsaiti ayrılıb, ilkin investorlar müəyyən olunub.

Cəbrayıl rayonunun elektrik təchizatı artıq var. Cəbrayıl yarımstansiyasının istifadəyə verilməsi önəmli hadisələrdəndir. Cəbrayıl rayonunun elektrik təchizatının artıq demək olar ki, bütün işləri görülüb.

Cəbrayıla 4-6 zolaqlı yol çəkilir. Cəbrayıla gələn vətəndaşlar rahat gələcək və buradan keçən Zəngəzur dəhlizindən istifadə edəcəklər. Rayonun bütün kəndlərinin tədricən bərpa edilməsi proqramı da təsdiq edilib.

Cəbrayıl rayonunda 240 meqavat gücə malik elektrik enerjisi stansiyasının inşasına başlanacaq. SOCAR BP şirkəti ilə Cəbrayıl rayonunda 240MVt-lıq günəş elektrik stansiyanın tikintisinə başlayacaq.

İşğaldan azad ediləndən sonra Prezident İlham Əliyev Cəbrayıl rayonuna dəfələrlə səfər edib. Dövlət başçısı səfərlər çərçivəsində ”KamAZ” ASC ilə ”Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin, Şərqi Zəngəzur iqtisadi rayonunda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının, Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının, Cəbrayılda akademik Mehdi Mehdizadə adına tam orta məktəbin, Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, Memorial Kompleksin və şəhərin bərpasının, Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlqoyma, Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin, Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin, “Cəbrayıl” yarımstansiyasının, “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin açılış, Xudafərin körpüsündə, Cəbrayıl şəhərində Dövlət bayrağının ucaldılması mərasimlərində iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının, “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, “Ağıllı Tingçilik” və “Dostluq Meşəsi” Kompleksinin təməlqoyma mərasimlərində iştirak ediblər. İki qardaş ölkənin rəhbərlərinin iştirakı ilə Cəbrayılda mətbuat konfransı keçirilib.

Prezident İlham Əliyev Cəbrayılda hərbi qulluqçularla, ictimaiyyət mümayəndələri ilə görüşlər keçirib.

***“XIZI”***

# Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub



**Xızı Rayon İcra Hakimiyyətinin və YAP Xızı rayon təşkilatının birgə təşəbbüsü ilə noyabrın 15-də gənclərin Heydər Əliyev Mərkəzinə ekskursiyası təşkil olunub.**

Ekskursiyaçılar, əvvəlcə, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin Xızı şəhərindəki abidəsini ziyarət edərək, önünə tər gül dəstələri düzüblər.





Heydər Əliyev Mərkəzində gənclərə Ulu Öndər Əliyevin zəngin həyat yolu və müstəsna siyasi fəaliyyəti, Azərbaycan xalqı və dövləti qarşısındakı əvəzsiz xidmətləri barədə geniş məlumat verilib.

Gənclər Heydər Əliyev Mərkəzində eksponat, fotoşəkil və kitablarla yaxından tanış olublar.

Sonda Xızı rayonunun ictimai-siyasi həyatında fəal iştirakı ilə seçilən bir qrup gəncə təşəkkürnamələr təqdim olunub.

*"XIZI", R.M.*
*15 noyabr 2023-cü il*

# "İnamlı Zəfər" sərgisi maraqla qarşılanıb



**Xızı rayonunda 8 Noyabr - Zəfər Gününün qeyd olunması ilə əlaqədar hazırlanmış Tədbirlər Planına uyğun olaraq "İnamlı Zəfər" adlı sərgi keçirilib. Sərgi 8 Noyabr - Zəfər Gününə həsr olunub. Noyabrın 6-da Xızı şəhərindəki Heydər Əliyev Mərkəzində təşkil olunmuş sərginin keçirilməsində əsas məqsəd gənclər və yeniyetmələr arasında vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət ruhunun yüksəldilməsi və milli-mənəvi dəyərlərimizin təbliğ olunmasıdır.**





Sərgidə yeniyetmələrin "Xarı bülbül", "Şuşa qalası", "Dəmir yumruq" mövzularında əl işləri nümayiş etdirilib. Xızı Rayon İcra Hakimiyyətinin rəsmiləri, ictimaiyyət nümayəndələri sərgini maraqla izləyiblər.

*"XIZI", R.M.*
*6 noyabr 2023-cü il*



# Yol hərəkəti qaydalarına həsr olunmuş "Diqqət, uşaqlar!" devizi altında tədbir keçirilib

Xızı Rayon Polis Şöbəsinin və Abşeron-Xızı Regional Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə oktyabrın 6-da Rafiq İsmayılov adına Xızı şəhər tam orta məktəbində hərəkətin təhlükəsizliyinə dair "Diqqət, uşaqlar!" devizi altında tədbir keçirilib. Uşaq və yeniyetmələrin iştirakı ilə yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində profilaktik tədbirləri gücləndirmək, ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanması və tədris prosesinin effektliyinin yüksəldilməsinə dövlət yol polisinin yardımının artırılması məqsədi daşıyan tədbirdə Xızı Rayon Polis Şöbəsinin rəsmiləri, o cümlədən Dövlət Yol Polisi bölməsinin əməkdaşları, məktəb rəhbərliyi, müəllimlər və şagirdlər iştirak ediblər.

Xızı Rayon Polis Şöbəsinin rəis müavini Vüsal Mərdanov, Xızı RPŞ-nin Dövlət Yol Polisi bölməsinin rəisi Məsim Hüseynzadə tədbirdə çıxış edərək yol hərəkəti qaydalarına aid dəyərli məsləhətlərini və tövsiyələrini şagirdlərin diqqətinə çatdırıblar.

Məktəbin direktoru Fazil Məmmədov yol hərəkəti qaydalarına həsr olunmuş tədbirin əhəmiyyətindən danışıb.

Daha sonra R.İsmayılov adına Xızı şəhər tam orta məktəbin şagirdlərinin ifasında yol hərəkəti qaydalarına dair kompozisiyalar nümayiş olunub. Kompozisiyaların nümayişi tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

*"XIZI", R.M.*
*6 oktyabr 2023-cü il*

# Məktəblərdə "Uşaq hüquqları" mövzusunda aparılan maarifləndirmənin xüsusi əhəmiyyəti var



**Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 20 noyabr 1989-cu ildə qəbul edilmiş uşaq hüquqlarının qorunmasına dair ən mükəmməl beynəlxalq sənəd olan Uşaq Hüquqları Konvensiyası dünyanın hər yerində yaşayan uşaqlara konvensiya ilə müəyyən olunmuş hüquqları təmin edir. Bu konvensiya uşaqların insan hüquqlarının bütün növlərini - mülki, siyasi, iqtisadi, sosial və mədəni - bir sənəddə birləşdirir.**

Uşaq Hüquqları Konvensiyasının qəbul edilməsinin ildönümü ərəfəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən hər il olduğu kimi 2023-cü ildə də "Uşaq hüquqları aylığı" elan edilmişdir.

Uşaqların müdafiəsi və inkişafının dövlətin siyasətində mühüm yer tutduğunu nəzərə alaraq, Xızı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Asim Abdullayev adına Altıağac qəsəbə və Fındığan kənd tam orta məktəblərinin 8, 9, 10 və 11-ci sinif şagirdləri, eləcə də adı çəkilən təhsil ocaqlarının pedaqoji heyətlərinin iştirakı ilə "Uşaq hüquqları" mövzusunda maarifləndirici tədbirlər keçirilmişdir.



Noyabrın 2-də və 3-də təşkil edilmiş tədbirlərdə uşaq hüquqları haqqında geniş məruzələr dinlənilmiş, mövzuya aid fotoslaydlar nümayiş etdirilmiş, söhbət-disputlar aparılmış, şagirdləri maraqlandıran suallar cavablandırılmışdır.

*"XIZI", R.M.*


Baş redaktor:
**Rafael Məmmədov**
Tel: (050) 965-88-89;
(050) 547-65-39;
(070) 831-95-96
*Whatsapp:* (050) 965-88-89;
(070) 831-95-96
*Elektron ünvan: xizi.r.m@mail.ru*







*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.*
*VÖEN: 7800023401*
*H/h:*
*33080019442400230124*

Qəzet "Bəxtiyar - 4 İKF" mətbəəsində çap edilib.

Qəzetdə gedən yazılara görə müəlliflər özləri məsuliyyət daşıyırlar.

*Tiraj: 600*
*Sifariş: 308*
*Ünvan: Xızı şəhəri, Vüsaqi küçəsi - 28*